**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ**

# QAZİLƏRƏ SOSİAL XİDMƏT MƏRKƏZİNİN ƏSASNAMƏSİ

**Mingəçevir şəhəri**

## 1. Ümumi müddəalar

**1.** Mingəçevir Dövlət Universitetinin (MDU) Qazilərə Sosial Xidmət Mərkəzi (bundan sonra Mərkəz adlandırılacaq) bu Əsasnamə ilə verilən səlahiyyətlər çərçivəsində Mərkəzin fəaliyyət istiqamətlərini, vəzifələrini, hüquqlarını və fəaliyyətinin təşkili qaydalarını müəyyən edir.

**2.** Mərkəz MDU-da təhsilalanların akademik nailiyyətlərinin artırılması, sağlam mühitin yaradılması və Azərbaycan Respublikasının ərazi bötüvlüyü, suverenliyi və müstəqilliyi uğrunda gedən döyüşlərdə sağlamlıq imkanlarını tam və ya qismət itirmiş şəxslərin ( bundan sonra qazilərin) mənəvi-psixoloji sağlamlığını və normal həyat tərzini dəstəkləmək məqsədilə fəaliyyət göstərir.

3. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Mingəçevir Dövlət Universitetinin Nizamnaməsini, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əsasnaməsini və bu Əsasnaməni rəhbər tutur.

## *2.* Sosial xidmət mərkəzinin əsas fəaliyyət istiqamətləri

2.1. Sosial xidmətin mərkəzinin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. Azərbaycan Respublikasının ərazi bötüvlüyü, suverenliyi və müstəqilliyi uğrunda gedən döyüşlərdə sağlamlıq imkanlarını tam və ya qismən itirmiş şəxslərə dəstək sahəsində dövlət siyasətinin aparılmasında iştirak etməklə öz səlahiyyətləri çərçivəsində həmin siyasətin həyata keçirilməsində iştirak etmək;

**2.1.2.** MDU-da "Sosial iş" ixtisası üzrə təhsil alan tələbələrin Azərbaycan Respublikasının sosial xidmət sisteminin gələcək mütəxəssisləri kimi onların praktiki bilik və bacarıqlarının artırılması və bu istiqamətdə kompleks tədbirlərin həyata keçirmək;

**2.1.3.** Təhsilalanların **s**əriştəyönümlü praktik işin icrası ilə yanaşı zəruri biliklərə yiyələnməsinə nail olmaq,

**2.**1.4.Sosial xidmət çərçivəsində təhsilalanların təlim maraqlarının, öyrənmə xüsusiyyətlərinin, təhsilə və cəmiyyətdə baş verən hadisələrə münasibətlərinin, meyil və maraqlarının öyrənilməsi, qazilərin cəmiyyətdə sosiallaşmasında yaranan çətinliklərin səbəblərinin müəyyənləşdirilməsi üzrə sistemli tədbirlərin həyata keçirilmək;

2.1.5. Sosial xidmətin məhz qazilərlə iş şəklində qurulmasını təmin edilməsi,

2.1.6.Qazilərin əhatə olunduğu insanlara qarşı münasibətlərində müşahidə edilən çətinliklərin aşkara çıxarılaraq aradan qaldırılması üçün preventiv tədbirlər görmək və bu istiqamətdə müvafiq tövsiyələr hazırlamaq.

## 3. Mərkəzin hüquqları

**3.1.** Mərkəzin vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqları vardır:

**3.1.1.** Sosial xidmət fəaliyyəti ilə məşğul olan digər dövlət və ya ictimai qurumlarla əməkdaşlıq etmək, təcrübə mübadiləsi aparmaq,

**3.1.2.** Mərkəzin mütəxəssislərinin mütəmadi olaraq təkmilləşdirmə kurslarına, ölkədaxili və ölkəxarici konfrans, simpozium, təlimlərdə iştirakı üçün şərait yaratmaq;

**3.1.3.** Mərkəzə yeni işçilər qəbul etmək və ya işçiləri tutduqları vəzifədən azad etmək barədə rəhbərliyə təqdimat vermək;

**3.1.4.** Mühazirə, müsahibə və çıxışlar yolu ilə sosial yardım biliklərin təbliği sahəsində iş aparmaq, ölkə daxilində və beynəlxalq miqyasda tanınan mütəxəssislərlə görüş-söhbətlər

təşkil etmək elmi və elmi-kütləvi jurnallarda, qəzetlərdə və s. iş təcrübəsini ümumiləşdirən məqalələrlə çıxış etmək;

## 4.Mərkəzinin vəzifələri

**4.1.** Sosial xidmət mərkəzinin aşağıdaşı vəzifələri vardır:

**4.1.1.** Elmi-tədqiqat mərkəzinə cəlb ediləcək tələbələri və qazilərin dairəsini müəyyən etmək və tədqiqata cəlb etmək,

**4.1.2.** Elmi tədqiqat mərkəzini formalaşdırmaq məqsədilə mütəxəssilər tərəfindən komissiya yaratmaq,

**4.1.3.** Elmi tədqiqat mərkəzinə başçılıq edəcək rəhbərin təyin edilməsi məqsədilə universitet rəhbərliyinə təkliflər vermək,

4.1.4. Pedaqoji işçilərlə birlikdə mərkəzin müvafiq inkişaf planlarının hazırlanmaq və həyata keçirmək;

**4.1.5.** Qazilərə sosial xidmətin həyat keçirilməsi üçün (səyyar xidmət də daxil olmaqla) otaq yaradılması və zəruri avadanlıqlarla təmin olunmaq,

**4.1.6.**Sosial xidmət istiqamətində təlimlər keçirmək,

**4.1.7** Sosial xidmət istiqamətində fəqlənən və qarşı tərəfdən seçilərək fəqləndirilən təhsilalanlara müvafiq sertifikatların verilməsini təmin etmək.

**4.1.8.** Maarifləndirici təbliğat kitabçaları və divar lövhələri hazırlamaq

**4.1.7.** Təhsilalanların peşəyönümü işinin planlaşdırılması ilə bağlı onlara tövsiyələrin vermək və təhsil müəssisəsinin kollektivi ilə birlikdə icra etmək;

**4.1.8.** Qazilərdə müxtəlif bacarıqların (özünüidarə, düzgün ünsiyyətin qurulması, kiçikyaşlılara qarşı davranışın formalaşdırılması, münaqişələrin düzgün həlli, həvəsləndirmə, məqsədyönlülük, modelləşdirmə, rollu oyunlar və s. üzrə müsbət davranışın tərbiyə edilməsi) formalaşdırılması mövzularında təhsil müəssisəsinin kollektivi üçün görüşlərin təşkili və məsləhətləşmələrin aparmaq;

**4.1.9.** Qazilərin iştirakı ilə müxtəlif təcrübələrə əsaslanan tədqiqatların nəticələrinin müzakirələrin təşkil etmək.

## 5. Mərkəzin fəaliyyətinin təşkili

**5.1.** Mərkəzin fəaliyyətinin təşkili MDU rektorunun əmri ilə təyin olunmuş rəhbər tərəfindən həyata keçirilir.

## 6. Mərkəzin yaradılması və ləğv edilməsi

**6.1.** Mərkəz MDU-nun Elmi Şurasının qərarı və rektorun əmri əsasında yaradılır və ləğv edilir.